# KİŞİ İDMAN GİMNASTİKASI ÜZRƏ 28-Cİ AZƏRBAYCAN ÇEMPİONATI VƏ AÇIQ BAKI BİRİNCİLİYİ, QADIN İDMAN GİMNASTİKASI ÜZRƏ 7-Cİ AZƏRBAYCAN ÇEMPİONATI VƏ BAKI BİRİNCİLİYİ

AZE
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

AGF
AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI

**30 noyabr və 1 dekabr 2023-cü il**

## DƏVƏTNAMƏ

**Yenilənib: 17.11.2023**

Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş idman klubları / cəmiyyətləri və təşkilatlarının nəzərinə!

Azərbaycan Gimnastika Federasiyası (AGF) Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə sıx əməkdaşlıq etməklə, Sizi, kişi idman gimnastikası üzrə 28-ci Azərbaycan çempionatı və açıq Bakı birinciliyi, qadın idman gimnastikası üzrə 7-ci Azərbaycan çempionatı və Bakı birinciliyində iştirak etməyə dəvət edir.

| | |
|---|---|
| **YERLİ TƏŞKİLAT KOMİTƏSİ** | **Azərbaycan Gimnastika Federasiyası**<br>Əlaqədar şəxs: Elmira Əliyeva<br>Bakı şəh., Heydər Əliyev prospekti, 178<br>Milli Gimnastika Arenası<br>AZ1029<br>Tel.: +99412 493 30 11, +99412 566 30 66<br>E-poçtu: performance@agf.az<br>Veb sayt: www.agf.az |
| **MƏKAN** | **MGA – Milli Gimnastika Arenası – Köməkçi zal**<br>Bakı şəh., Heydər Əliyev prospekti, 178<br>AZ1029<br>+99412 566 9699<br>E-poçtu: info@mga.az<br>Veb sayt: www.mga.az<br> |
| **TARİX** | 30 noyabr və 1 dekabr 2023-cü il |
| **İLKİN CƏDVƏL** | Çərşənbə 29 noyabr – Podium məşqləri<br>Cümə axşamı 30 noyabr – 1-ci yarış günü<br>Cümə 1 dekabr – 2-ci yarış günü |

<table>
<tr><td></td><td>Yarışların cədvəli ilkin qeydiyyatdan 1 həftə sonra Yerli Təşkilat Komitəsi tərəfindən müvafiq gimnastika bölmələri və ya idman cəmiyyətlərinə göndəriləcəkdir.</td></tr>
<tr><td>YARIŞLARIN FORMATI</td><td>Yarışların formatı 2023-cü il üçün kişi və qadın idman gimnastikası üzrə milli yarışların proqramına əsasən olacaq. Sözügedən proqramları www.agf.az saytından əldə etmək mümkündür.</td></tr>
<tr><td>YAŞ HƏDDİ</td><td>Yaş həddi 2023-cü il üçün kişi və qadın idman gimnastikası üzrə milli yarışların proqramına əsasən tənzimlənəcək.</td></tr>
<tr><td>HAKİMLƏR BRİQADASI</td><td>Yarışlarda çıxışlar 2022-ci ildə AGF-nin təşkilatçılığı ilə ADBTİA tərəfindən keçirilən müvafiq kurslarda iştirak etmiş və imtahandan müvəffəqiyyətlə keçmiş AGF-nin hazırkı Olimpiya dövrünü (2022-2024-cü illər) əhatə edən hakimlik lisenziyasına malik hakimlər tərəfindən dəyərləndiriləcək.<br>Hakimlər AGF tərəfindən təyin olunacaq.</td></tr>
<tr><td>MƏŞQÇİLƏR</td><td>Hazırkı Olimpiya dövründə yarışlardan öncə məşqçilik kurslarının keçirilməməsi səbəbindən AGF-nin İcra Komitəsinin 27 dekabr 2021-ci il tarixli qərarına əsasən sözügedən yarışlarda 2016-2021-ci illərdə məşqçilik lisenziyası olan məşqçilər qeydiyyatdan keçə bilərlər.</td></tr>
<tr><td>SON QEYDİYYAT TARİXLƏRİ</td><td><table><tr><td>İlkin qeydiyyat</td><td>30 oktyabr 2023-cü il</td></tr><tr><td>Son qeydiyyat</td><td>23 noyabr 2023-cü il</td></tr></table><br>İlkin qeydiyyat və son qeydiyyat Yerli Təşkilat Komitəsinin e-poçtuna göndərilməlidir: performance@agf.az</td></tr>
<tr><td>PÜŞKATMA</td><td>Gimnastların çıxış ardıcıllığını müəyyən etmək üçün püşkatma Yerli Təşkilat Komitəsi tərəfindən yarışlara ilkin qeydiyyat tarixindən sonrakı 1 həftə ərzində keçiriləcəkdir.</td></tr>
<tr><td>FOTO ÇƏKİLİŞ</td><td>Podium məşqləri zamanı hər bir idmançı foto şəkilinin çəkilməsi üçün Yerli Təşkilat Komitəsinin ayırdığı müvafiq yerə (“Green room”) yaxınlaşmalıdır.</td></tr>
<tr><td>MÜKAFATLANDIRMA</td><td>Gimnastlar mükafatlandırma mərasimlərində idman geyimində (idman forması) iştirak etməlidirlər (AGF-nin Texniki Reqlamentinə əsasən).</td></tr>
<tr><td>LİSENZİYA</td><td>Tədbirdə yarış zamanı yalnız etibarlı AGF lisenziyası olan gimnastlar iştirak edə bilər. Etibarlı lisenziyaya malik gimnastlar məşq və yarış zamanı zədə aldıqları təqdirdə 2000 manata qədər olan sığorta dəyərində tibbi yardım xidməti ilə təmin olunurlar.</td></tr>
<tr><td>YAŞAYIŞ / YEMƏK / NƏQLİYYAT</td><td>Sözügedən yarışda iştirak edən nümayəndə heyətlərinin yaşayış, yemək və nəqliyyatının təşkili və bununla bağlı xərclər ezam edən təşkilatların öhdəliyindədir.</td></tr>
<tr><td>YARIŞLARIN MENECERİ</td><td>Natalya Bulanova<br>Tel.: +99412 4933011<br>E-poçtu: td@agf.az</td></tr>
<tr><td>SOSİAL MEDİA</td><td>https://www.facebook.com/azegymnastics<br>https://twitter.com/Azegymnastics<br>https://www.instagram.com/azegymnastics/<br>https://www.tiktok.com/@azerbaijangymnastics?</td></tr>
<tr><td>TİBBİ XİDMƏTLƏR</td><td>Zərurət yarandıqda Yerli Təşkilat Komitəsi tərəfindən ilkin tibbi yardım göstəriləcək.</td></tr>
<tr><td>XALLARIN HESABLANMASI</td><td>Xalların hesablanması “SMART SCORING” şirkəti tərəfindən həyata keçiriləcəkdir.</td></tr>
</table>

| | |
|---|---|
| **TƏTBİQ OLUNACAQ QAYDALAR** | AGF-nin İntizam Qaydaları<br>AGF-nin Etika Qaydaları<br>AGF-nin Texniki Reqlamenti<br>AGF-nin Gimnastların Lisenziyası üzrə Qaydaları<br>AGF-nin Kütləvi İnformasiya Vasitələri üzrə Qaydaları<br>AGF-nin Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması üzrə Qaydaları |
| **QEYDİYYAT ÜÇÜN SON TARİXLƏRİN XÜLASƏSİ** | İlkin qeydiyyat – 30 oktyabr 2023-cü il<br>Son qeydiyyat – 23 noyabr 2023-cü il |

Hörmətlə,

Yerli Təşkilat Komitəsi

Yer və tarix:
Bakı, 31 iyul 2023-cü il